# MƏTBUAT TARİXİ

*Alxan BAYRAMOĞLU*

## ABDULLA TOFİQ SUR ERMƏNİ SEPARATİZMİ HAQQINDA

**РЕЗЮМЕ**

Геноцид, совершенный армянами для реализации своих планов по созданию государства "Большая Армения", постоянно беспокоила азербайджанскую общественность. В статье анализируется публицистическая статья известного поэта, публициста и учителя Абдулла Тофиг Сура под названием "Xoruzun quyruğu görünməyə başladı" (Виден хвост петуха). В конце представлен полный текст этой статьи.

**Ключевые слова: Сеператизм, публисистика, метод, А.Сур**

**SUMMARY**

Genocides which committed by Armenians for realizing their plans to create "Big Armenia" always bothered the headmost Azerbaijani community. In the article is talking about well-known poet, publicist and teacher, Abdullah Tevfik Sur's publicist writing " The tail of the cock began to appear" ("Xoruzun quyruğu görünməyə başladı") which was writing about that problem. At the end the whole text of the writing is presented.

**Key words:** Armenian separatism, publicity, betrayal and hipocrisy, A.Sur, harmful method.

XX əsrin əvvəllərindən zaman-zaman qanlı faciələrlə üzə çıxan erməni separatizmi və ərazi iddiaları Azərbaycanın qabaqcıl ictimaiyyətinin diqqət mərkəzində olmuşdur; onlar öz çıxışları, qələm məhsulları ilə erməni ideoloqlarının yeritdikləri məkrli siyasətin iç üzünü açmağa çalışmışlar. Belə vətənpərvər ziyalılardan biri də gəncəli şair, publisist, ədəbiyyatşünas və pedaqoq Abdulla Tofiq Sur olmuşdur. O, Daşnaqsütun partiyası ideoloqlarının təhriki və təşkilatçılıqları ilə ermənilərin Gəncədə və Azərbaycanın digər ərazilərində törətdikləri qırğınların hər iki xalqa – ermənilərlə azərbaycanlılara ancaq fəlakət, qan-qada gətirdiyini, separatizmin uğursuzluğa məhkumluğunu açıb göstərən, ermənilərin riyakar və xəyanətkar xislətlərini ifşa edən məqalələrlə mətbuat səhifələrində ardıcıl çıxış etmişdir. A.Surun humanist ruhu, siyasi ayıqlığı, fəal vətəndaş mövqeyi ilə





seçilən həmin məqalələrindən birini oxuculara təqdim etməyi faydalı hesab edirəm.

**A.Sur**

### XORUZUN QUYRUĞU GÖRÜNMƏYƏ BAŞLADI

"Həyat"ın 14 fevral 1906-cı il tarixli 35-nci nömrəsində "Erməni mətbuatı" dairəsində "M.Ş." imzalı bir məqalə oxudum.

Məqalə sahibi deyir: "... Şimdi vəqtdir və lazımdır o dərmana müraciət olunsun ki, qətə qırğınları dayandırıb, bilmərrə sakit edə bilər..."

Burası çox gözəl!

Əcəba o hikmətli fərman nə imiş?

Yenə məqalə sahibi özü deyir: "Həman dərman hər iki dəva edən tərəflərin ölkə-ölkə bulunub aralanmaq məsələsini bilatəxira tərəflərin rizası ilə bitirməkdən ibarətdir".

Mühərrir əfəndi sözümü bir az da irəlilərə sürüb bu məsələnin həlli mümkün olmaz firində olanlara da cavab veriyor ki: "Etdigimiz bölgü (təqsim) və aralanmaq ələn həyatda vəhşətli qantökmələr ilə həll olunsun; lakin bizim vəkillərimizin təklifi ancaq bir ondadır ki, məsələnin əsl həll olunmasını bilatəxir qansız və qırğınsız əmələ gətirsinlər. Bilməlidir ki, bundan sonra erməni, müsəlman kəndçiləri bir yerdə dolana bilməyəcəklər ... ilax..."

İştə bizim nəzər diqqətimizi çəkən bu nöqtələrdir! A pir olmuş daşnaqsütunçular, bunu bayaqdan deyə idiniz də!... Biz müsəlmanları bu qədər neçün dağa, daşa salırdınız, fikrimizi çaşdırırdınız?

Əvvəl mərhələdə anlaşılan bu oluyor ki, daşnaqsütunçular da "avtonomiya" (istiqlal) istəyirlər!!!

Böylə isə çox gözəl!... Buna heç bir qafqasiyalının bir deyəcəyi olmaz... Lakin beşər təha, beşər və təha!..

İstiqlal (avtonomiya) böylə qurt sürüsü kibi bir tərəfə toplaşmağa deməzlər, a "M.Ş." əfəndi! İstiqlal, yəni: hər hanki bir qitənin, iqlimin əhalisi öz işinə öz aralarından intixab etdikləri vəkillər baxıb, hər millət özünə "hakim" olub, bu vasilə ilə də başqa millət özünə tabe olmaqdan, milli ədəli və mərasimi əxlaq və səyini, qövmiyyət və dili yox olmaqdan hifzü və qayə etmək deməkdir. Ölkənin ümum əhalisinə aid məsələləri də "ümumun məbusan cəmiyyəti" baxar. Heç kəs heç kəsə "ağalıq" satamaz. "Millət hakimə" sayılmaz. Heç kəs heç kəsin nüfuz və hökuməti altında əzilməz, puç olub getməz.

Böylə olunca ermənilər ilə müsəlmanlar, gürcülər ilə ermənilər qarışıq yaşamalarında heç bir qorxu yox! Nədən ayrılsınlar? Bu iftiraqı nə iqtiza ediyor? İsveçrə qantoralarında nemsələr ilə firənglər, macarlar ilə də nemsələr çox yaxşı, rahat yaşayırlar. Bunlar bizə dəlildir.

Bilməm, bəlkə "separatizmə" (ayrılıq) istəyirsiniz. Böylə isə bu, başqa məsələ!

Əfəndim, bunda da yanlış gediyorsunuz. Bu, heç mümkün degil!... Qafqasiyamızda sizin üçün separatizmə əsla mümkün deyil!... Qafqasiyada bu fikrə səfsətəpərdaz daşnaqsütun yazıçılardan başqa heç kəs düşməz. Bu fikrə qoyun laməhalə gürcülər ilə dağıstanlılar düşürlər ki, onlar başqa millət ilə qarışıq deyil deyəcək dərəcədə top yaşayırlar. Mavərayi Qafqasda isə müsəlmanlar ilə ermənilər qarışıqdırlar. Nə müsəlmanlar ermənilərin içindən çıxıb, torpaqlarını ermənilərə verib bir tərəfə çəkilməzlər, nə də ermənilər öylə yapmazlar zənnindəyəm. Bizcə, böylə bir ittifaqı tarix elmi göstərmiyor. Məsəl yox!... Zata buralarını özünüz də çox gözəl biliyordunuz ki, qəzalı, köhnə idarənin "hökm etmək istər isək, ayır!" siyasəti sizin üçün dəbrusilə tədarük etdi, ortaya atdı. 6-9 fevral faciəsi törədi. Məramınıza çatmağa bunu da bir bəhanə etdiniz. Orada, burada müsəlmanları ki qanuni-ətalər iqtizasınca özlərini "millət-hakimi", sizi isə "millət-məhkumə" biliyorlərdi. Onları sancmağa, onlar ilə bığ-bığa durmağa başladınız, onlara dirsək göstərdiniz. Təbii ki, müqabilə görüncə də sızıltınız göylərə çıxdı, ah və nalələr ilə aləmi doldurdunuz. Biçarə erməni qövmünü bədbəxt etdiniz. Qaşını qayırdığınızda gözünü çıxardınız. Müsəlmanlardan ayırdınız. Axırda müsəlmanları o hala saldınız ki, ermənilərə qarşı ümumə "bayqot" elan etmək istəyirlər. Qırğınları saldınız. Bu qədər qırğınlara, qanlara, odlaqlara, talanlara, göz yaşlarına, ah və nalələrə bunun üçünmü səbəb olurdunuz,

Daşnaqsütunlar!

Çox bildiginizdən özünü itirmişsiniz. Bir azca özünüzə gəlin!

"Separatizmə" Qafqasiyada sizin üçün misirmi?

Xoruun quyruğu görünməyə başladı; siz daşnaqsütunlar "separatizmə"yə çalışırsınız imiş!

Bəli! Zənnimizcə erməni qövmü ilə müsəlman qövmini bir bəhanə ilə çarpışdırıb erməniləri "Qars" oblastı ilə İrəvan vilayətinə toplarsınız. Oralardakı müsəlmanları da Gəncə, Bakı vilayətlərinə qaçmağa məcbur edərsiniz. O vəqt erməni qövmü bir məhlə, yəni Türkiyə hüdudunda Qars oblastı ilə İrəvan vilayətinə toplarsınız, sonra da hökumət ilə çırpışıb separatizməyə nail olarsınız. Digər tərəfdən də Samsun, Zeytun, Muşər, Van, Səlmas erməniləri də sizə iltihaq edərlər, məramınıza çatarsınız. "Böyük ermənistan" dövləti təşkil etmiş olarsınız, qatalikosunuz da məşhur arzusuna çatar; Ermənistan padşahını dualar, onun başına öz əli ilə tac qoyar!

Xeyir olsun, yaxşı yuxudur! Dadlı umacdır! Əfsus ki, qaşığı yanında degil!

Canım, siz doğru isəniz, "Ermənistan" dövləti təsis etmək istəyir isəniz, eybi yox, müsəlmanlar sizə yol verərlər. Gəlin "Kür" nəhri boyuna toplaşın, separatizmə, meparatizmə, nə istəyirsiniz, oradan istəyiniz. Nə üçün





meylinizi Qars, İrəvan tərəflərinə veriyorsunuz. Türkiyə, İran ermənilərinəmi yaxınlaşmaq istəyirsiniz?

Türkiyə və İran dövlətlərinin siyasi nümayəndələrinin nəzər diqqətlərini bu mühüm nöqtəyə cəlb ediyorsunuz.

Aşnalar, Dağıstan ilə Azərbaycan arasına girsəniz a.

Ya belə, ya da separatizmədən əl çəkin. Bu, mümkün olan iş degil. Salet-təbiətə mövqe coğrafiəyə buna heç müsaid degil. İdaree-müstəqilə təsisinə çalışsa idiniz, sizi heç kəs qınamazdı.

Hörmətli oxucu əfəndilər!

İmdi erməni müsəlman qırğınlarının bu qədər davamı səbəbi erməni mühərrirlərinin ruhu daşnaqsütunların məramı bir azca olsun anlaşılan kibi olurmu? Xoruzun quyruğu görünməyə başlayırmı?

Ermənilər, yazıqsınız, daşnasütunlara aldanmayın. Cilovunuzu onların xəyanətkar əllərinə verməyin. Onlar sizin həyat və bəqanıza yox, baləks məhv və məzmhal olmanıza çalışırlar. Bu az qədər təcrübə sizə bunu isbat etmədimi? Türkiyədə nə sərf apardınız ki, Qafqasiyada və ya İrəvanda onu sərf aparasınız!

## ƏDƏBİYYAT:

1. "İrşaq" qəz., 24 fevral 1906. №53. s.3-4